Dr. Telman İbrahimov
Azərbaycan Milli Elmlər Akademiyasının
aparıcı elmi işçisi

MİR MÖHSÜN NƏVVAB QARABAĞİNİN "SİLAH KOLLEKSİYAS"I BARƏSİNDƏ

Mir Möhsün Nəvvab Qarabağinin silah kolleksiyası olubmu və ola bilərdimi ? Bu suala cavab verməkdən əvvəl etiraf etmək lazımdır ki, Mir Möhsün Nəvvabın sağlığında onun silah kolleksiyası olması barədə heç bir şəxsi etiraf və ya tarixi məlumat yoxdur. Mir Möhsünün Nəvvabın ölümündən sonra da (1918) bütün Sovet dövrü ərzində onun həyatına həsr olunmuş heç bir tədqiqatda və ya sənəddə Mir Möhsünün silah kolleksiyası olması barədə məlumata rast gəlinməyib. Bununla belə, Mir Möhsün Nəvvabın erməni işğalınadək mövcud olduğu Şuşadakı ev-muzeyinin 130 ədəd eksponatı arasında silahın olması barədə məlumat olmayıb.

Mir Möhsün Nəvvaba məxsus silah kolleksiyasının olması fikiri ilk dəfə 2023-cü ildə, onun 190 illik yubileyinin keçirilməsi zamanı səslənib. Azərbaycan Milli Tarix Muzeyi 1940-cı ildə Mir Möhsün Nəvvabın oğlu Seyid Miriş ağa Ağamirzadə (Mir İbrahim Ağa) tərəfindən muzeyə təhvil verilmiş tarixi silah dəstini illər keçdikdən sonra, Mir Möhsün Nəvvaba məxsus olmasını iddia etmişdir. Ehtimal etmək olar ki, muzeyin bu yeni məlumatı silah dəstinin Mir Möhsün Nəvvabın oğlu tərəfindən muzeyə bağışlanması (müsadirə olunması?) əsasında yaranmışdır.

Silah dəstinin muzeyə necə düşməsinin təfərruatları dəqiq bilinmədiyindən bunun o dövr üçün səciyyəvi olan versiyasına nəzər salaq: 1940 il, artıq II Dünya Müharibəsi gedirdi, Sovet hakimiyyətinin Daxili İşlər üzrə Xalq Komissarlığı (NKVD) əhalidə olan bütün odlu silahların dövlətə təhvil verilməsini təşkil etmişdi. Şəxsi istifadədə və ya kolleksiyalarda olan tarixi soyuq silahlar isə, əhalidən yığılaraq muzeylərə təhvil verilirdi. Belə şəraitdə Mir Möhsün Nəvvabın oğlunun özünə məxsus silah dəstini muzeyə təhvil verməsi başa düşüləndir. Eyni zamanda, ehtimal etmək olar ki, həmin silahları NKVD Mir Möhsünün oğlundan müsadirə edərək muzeyə təhvil vermişdir.

Mir Möhsün Nəvvabın oğlu Seyid Miriş ağa Ağamirzadənin muzeyə bağışladığı (təhvil verdiyi ?) silahların Mir Möhsün Nəvvaba deyil, şəxsən özünə aid olmasını müəyyən etmək bir o qədər çətin deyil. Belə ki, məlum olduğu kimi, Seyid Miriş ağa Erməni-Azərbaycanlı müharibələri səbəbindən yaradılmış gizli hərbi-siyasi təşkilat olmuş - "Difai" firqəsinin Şuşa bölməsinin başçısı olmuşdur. Araşdırmaçı Ənvər Çingizoğlunun sözünə görə "Difai" təşkilatında səngərə sipər,düşmənə çəpər, oğullardan biri məhz Seyid Miriş ağa Ağamirzadə olmuşdur"(2.) "Difai" təşkilatı ermənilərin törətdiyi soyqırıma qarşı silahlı mübarizəni təşkil edərək, türk əhalisinin əminamanlığını qoruyaraq, ermənilərə dəstək verən rus canişinlərini və erməni daşnakları öz arsenalında olan silahlarla zərərsizləşdirirdi.

Beləliklə, ölümlə dəfələrlə üz-üzə gəlmiş, hərbi döyüşlərdə iştirak etmiş və milli təəsübkeşlik hissi yaşayan Seyid Miriş ağa Ağamirzadənin silaha aludə olması, tarixi silahları türklərin azadlıq mübarizəsinin simvolu sayaraq, onları özünün şəxsi kolleksiyasında saxlaması tam məntiqi və inandırıcı görünür. Böyük ehtimalla silahlar "Difai" döyüşçüsü olmuş Seyid Miriş Ağaya məxsus idi, filosof, rəssam, musiqiçi, münəccim, mömin Mir Möhsün Nəvvaba yox

Yeri gəlmişkən, araşdırmaçı jurnalist və geneoloq Ənvər Çingizoğlu Seiyid Miriş ağa Ağamirzadənin həyatına həsr olunmuş tədqiqatında onun şəxsi tarixi silah dəsti olması barəsində məlumat verərək, yazır: "Seyid Miriş ağa Ağamirzadə öz silah dəstini muzeyə təhvil vermişdir"(2.).

Bütün yuxarıda deyilənlərə rəğmən, Seyid Miriş ağa Ağamirzadənin Muzeyə təhvil verdiyi silah dəstinin Mir Möhsün Nəvvabın kolleksiyasına məxsus olması versianı da nəzərdən keçirmək yerinə düşər. Tarixi silah dəstinin (14 ədəd) Mir Mösün Nəvvaba aid olması mümkün idimi? Bu barədə heç bir tarixi məlumatın olmamasını yaddan çıxarmayaraq, Nəvvabın şəxsiyyəti, həyat tərzi, maraq dairəsi, elmi, ədəbi, bədii yaradıcılığına diqqət yetirək: Mir Möhsün Nəvvab seyid nəslindən olan mömin, şair,

musiqi nəzəriyyəçisi, xəttat, filosof, astronom, müəllim, rəssam olmuşdur. Belə maraqları olan humanist təfəkkürlü, bədii düşüncəyə və fitri istedada malik şəxsiyyətin hərbi silah toplamağa marağının olması inandırıcı deyil. Digər tərəfdən, erməni-türk müharibələri haqda yazan Mir Möhsün Nəvvab artıq 70 yaşı keçmiş ahıl insan idi və onun möminliyi silaha tam zidd idi.

Mir Möhsün Nəvvabın ədəbi irsinə də nəzər salsaq görərik ki, o qan tökməyin, zülmün, ölümün, ədalətsizliyi inkar edən şəxsiyyət kimi daima öz mövqeyini ifadə etmişdir. Mir Möhsün Kərbəla müsibətlərinə həsr olunmuş "Bəhr ül-Hüzn" əsərində döyüşü, qəhrəmanlığı, qələbəni vəsf etmir, o müharibəni insanları "hüzn dəryasına" ("Bəhr ül-Hüzn"- Qəm Dəryası") qərq edən faciə kimi qiymətləndirir.

Mir Möhsün Nəvvabın rəssam kimi, şəxsən təsvir etdiyi çoxsaylı döyüş səhnələrindəki ("Bəhr ül-Hüzn" kitabının illüstrasiyaları) silah təsvirlərinin ikonoqrafik təhlili də onu deməyə əsas verir ki, Mir Möhsün Nəvvab döyüş silahlarını, onların konstruktiv quruluşunu, ölçü nisbətlərini və bəzək sistemlərini yaxşı tanımırdı, və ya - onlara tam biganə idi. Onun yaratdığı silah təsvirlərində müəllifin silaha olan sevgisindən, silah aludəçiliyindən, silahdan zövq almasına işarə edən heç bir əlamət yoxdur. Silah kolleksiyaçısı adətən silah təsvirinə də marağını, diqqətini, rəğbətini gizlədə bilmir. Silah kolleksiyaçısı olan rəssam silahın gözəlliyinə, onun güclü, brutal və xarizmatik obrazına biganə qala bilməyərək, silah təsvir edərkən də özünün maraq və rəğbətini qeyri-ixtiyari olaraq gizlədə bilmir və bu maraq silah rəsmində özünü mütləq büruzə verir. Silaha aludəçilik və ona maraq Mir Möhsün Nəvvabın heç bir təsvirində görmək mümkün deyil.

O ki qaldı Seyid Miriş ağa Ağamirzadənin Tarix Muzeyinə verdiyi silah kolleksiyasına, çox böyük ehtimalla, o silahların atası Mir Möhsündən yadigar qalmasını deyərək, bir tərəfdən özünü NKVD cəlladlarından sığorta etmiş, digər tərəfdən isə – silah dəstinin görkəmli tarixi şəxsiyyətə bağlayaraq, onların gələcəyə saxlanmasını təmin etmək istəmişdir.

İstənilən halda, Azərbaycan mədəniyyətinin böyük mütəfəkkiri Mir Möhsün Nəvvab Qarabağiyə məxsus silah kolleksiyasının olması fikiri dahi humanist və ensiklopedik dünyagörüşə malik mütəfəkkir, rəssam, musiqişünas obrazına heç bir müsbət çalar vermədiyi kimi, onun "silah kolleksiyaçısı" kimi qələmə verilməsi də heç bir vəchlə Mir Mösün obrazına yaraşmır. Mir Möhsün Nəvvab Qarabağı Allah bəndəsi, mömin və alim olmaqla bərabər Azərbaycan mədəniyyətinin humanist sütünlarından biri olmuş və tarixi yaddaşımızda məhz bu obrazda qalacaqdır.

Ədəbiyyat

1. Mir Möhsün Nəvvab 190. Daycest. Bakı 2023
2. Ənvər Çingizoğlu. Seyid Miriş ağa Ağamirzadə: Difaiçilərin seyidi... "Xudafərin" jurnal. 12.07.2020. https://xudaferin.eu/seyid-miris-aga-agamirzad-difaicilrin-seyidi.html
3. Zöhrə Fərəcova. Ağamirovlar. "Azərbaycan" qəzeti. 18 mart 2022
4. Səbuhi Əhmədov. Mir Möhsün Nəvvabın silah kolleksiyası və Şuşada silah istehsalı. Bakı 2023
5. Gözəllik və bilik aşiqi Nəvvab. Bakı 2018. https://clb.az/arxiv2021/dosyalar/1738.pdf



Mir Möhsün Nəvvab Qarabağı
1833 - 1918



Seyid Miriş ağa Ağamirzadə (Mir İbrahim Ağa)

“Difai” partiyasının(Firqəsinin) emblemi. 1905-191

“DİFAİ” Şuşa şöbəsinin üzvləri. Şuşa şöbəsində 600 yaxın könüllü üzv
Rus imperiyası və erməni daşnaklarına qarşı siaysi və silahlı mübarizə aparmışlar

Mir Möhsün Nəvvab. Kkitab illüstrasiyası

Mir Möhsün Nəvvabın öz kitabına çəkdiyi illüstrasiyalardan



Mir Möhsün Nəvvabın öz kitabına çəkdiyi illüstrasiya

Mir Möhsün Nəvvab “Qızıl gül” sulu boya. 1874



Səbuhi Əhmədov. Mir Möhsün Nəvvabın silah kolleksiyası və Şuşada silah istehsalı.
Bakı 2023